**Xəlil İSMAYILOV**
*Əməkdar mədəniyyət işçisi*
*tarix elmləri doktoru, professor*

# "KİTABXANA İNFORMASİYA RESURSLARI" FƏNNİNİN TƏDRİSİ YENİ ASPEKTDƏ

***Açar sözlər:*** *Kitabxana, informasiya, komplektləşdirmə, texnologiya, ədəbiyyat, proses*

***Ключевые слова:*** *Библиотека, информация, приобретение, технологии, литературы, процесс*

***Keywords :*** *Library, information, acquisition, technology, literature, the process*

Kitabxana fondu müasir cəmiyyətdə informasiya resurslarının tərkib hissələrindən hesab olunur. İnformasiya resurslarının digər növlərindən fərqli olaraq kitabxana fondlarının fərqli cəhətləri ondan ibarətdir ki, komplektləşmə zamanı fondun tərkibi məqsədyönlü şəkildə nəşrin növünə və komplektləşmənin profilinə uyğun aparılır.

Vahid kitabxana fondlarının ümumi modelinin yaradılması üçün, fəaliyyətdə olan fondun bütün yarımsistemlərinin tədqiq olunub öyrənilməsi ilə onun bütün parametrlərə və normalara, həmçinin oxucu maraqlarına uyğun gəlməsini ciddi şəkildə öyrənmək olduqca vacibdir. Bu deyilənləri müəyyənləşdirdikdən sonra fondun tərkibi ilə bağlı optimal qərar qəbul etmək olar və optimal idarəetmə qərarları və fondun formalaşması sahəsində yəni komplektləşmə, fondun yerləşdirilməsi və qorunması haqında düzgün fikir söylənilə bilər.

Kitabxana fondlarının komplektləşdirilməsi, idarə edilməsi və qorunması son illərdə müxtəlif yanaşmalar və xüsusiyyətlər kəsb etməkdədir. Xüsusilə, sənəd resurslarının tərkibi, məzmunu və formalarında nəzərə çarpan bir sıra yeniliklər vardır. Bu yeniliklər fondun tərkibinin açılmasında, onun qorunub saxlanılmasında bir sıra vacib məsələlərin həllini tələb edir. Son illərdə kitabxana işinin inkişadfında çox mütərəqqi yeniliklər baş vermiş və əsasən iki istiqamətdə bu yeniliklər həyata keçirilir. Əsasən bu yeniliklər ənənəvi avtomatlaşdırma proseslərinin həyata keçirilməsinə və yeni informasiya texnologiyalarının tətbiqinə yönəldilmiş, əsasən intensiv olaraq texniki avadanlıqların əldə edilməsinə yönəldilmişdir. Əlbəttə, həm dünyada gedən proseslər, həm də respublikamızda bu istiqamətdə müəyyən problemlər öz həllini tapmaq üzrədir.



Lakin hazırda kitabxanaların qarşısında ancaq ənənəvi texnoloji proseslərin həyata keçirilməsi və onların texniki təminatı yox, ilk növbədə idarəetmə vəzifələrinin həyata keçirilməsi, kitabxana xidmətinin və onun keyfiyyətinin yaxşılaşdırılması müasir tələblər səviyyəsinə qaldırılmalıdır.

Kitabxana işində sözsüz ki, bu vəzifələrin həlli yerinə yetirilməklə yanaşı, kitabxanaşünaslıq tədqiqatlarında, kitabxana fondlarının idarə edilməsi, onların formalaşması mühüm əhəmiyyət kəsb edir. Bu haqda görkəmli kitabxanaşünas alimlərin əsərlərində çox dəyərli fikirlər vardır. Fondun formalaşması və idarə olunması sahənin tarixi, ayrı-ayrı terminlər, idarəetmənin strukturu, komplektləşmənin növləri, mənbələri və s. nəzəri ədəbiyyatlarda olduğu kimi mühazirələr deyilərkən tələbələrə çatdırılmalıdır. Əlbəttə, bu fikirlər bir tarix olaraq və ya ənənəvi formalardan biri kimi yox yeni aspektdə, yeni standartlara uyğun olaraq çatdırılması vacibdir.

Kitabxana informasiya resursları haqqında danışarkən ictimai istifadə məqsədilə bütün informasiya resursları haqqında geniş təsəvvür yaratmaq lazımdır. Nəzərə almaq lazımdır ki, şəxsi kitabxanalarla yanaşı dövlət kitabxanalarından bütün ərazidə yaşayan oxucular istifadə edir. Kitabxana fondu özlüyündə çox mürəkkəb bir anlayışdır və mürəkkəblik indiki zamanda xüsusilə informasiya texnologiyalarının inkişaf etdiyi bir dövrdə, kitabxana sferasında baş verən yeniliklərdən sonra daha mürəkkəb proseslər meydana çıxmış, mürəkkəbliklər daha da artmışdır. Ona görə də kitabxana informasiya resurslarında yaranmış mürəkkəb proseslər təhlil edilərkən, ən çətin anları çox xırda elementləri diqqətlə təhlil etmək və öyrənmək vacibdir. Xüsusilə yeni informasiya resurslarının kitabxana fondlarında geniş şəkildə komplektləşdirilməsi yeni problem kimi tədrisdə əhatəli şəkildə açıqlanmalıdır. Kitabxana-informasiya resurslarının tədrisi prosaesində görkəmli kitabxanaşünas alimlərin fond haqqında fikirləri, elmi nəzəri konsepsiyaları mühazirələrdə geniş şərh olunmuşdur. Bu sahədə görkəmli kitabxanaşünas alimlərin, xüsusilə rus kitabxanaşünaslarının fikirləri həm müqayisəli olaraq, həm də yaradıcı və bəzən də tənqidi yanaşılmaqla təmin edilməlidir.

Bir məsələni qeyd etmək lazımdır ki, kitabxanaşünaslıqda uzun illərdir ki, kitabxana fondlarının inkişafı və onun idarə olunması və formalaşması, görkəmli alimlərin tədqiqatlarında öz tarixini yaratmış və elmi yeniliklərlə zənginləşmişdir. Bu sahədə kitabxana fondunun bir proses kimi formalaş-

ması kitabxanaşünas alim Yuri Vladimiroviç Qriqorev tərəfindən əsaslı şəkildə işlənilmiş və təhlil edilmişdir. Y.V.Qriqorev tərəfindən işlənmiş konsepsiya ondan ibarətdir ki, fondun idarə olunması, fondun formalaşması, komplektləşmə, təşkil və idarə etmə prosesləri eyni səviyyədə əsas tərkib hissələrdən biri kimi meydana çıxır. Kitabxana resurslarının komplektləşdirilməsi, formalaşdırılması və idarə edilməsindən danışarkən Qriqorevin fikirlərinə görə komplektləşmənivə hər bir prosesi ayrılıqda nəzəri və təcrübi cəhətdən əsaslandırmaqla izah etmək lazımdır. Kitabxana fondunun idarə olunmasından danışarkən digər kitabxanaşünas alimlərin fikirlərini də izah etmək yerinə düşər ki, tədris prosesində onların fondun idarə edilməsi ilə bağlı fakir və mülahizələrinin açıqlaması olduqca vacibdir.

Görkəmli kitabxanaşünas alim Y.M.Stolyarov kitabxana fondunun idarə olunmasını iki yarım sistemə bölmüş və göstərmişdir ki, bu bölgü ilk növbədə sosial idarəetmə ilə bağlıdır, yəni işçilərin idarə edilməsilə, fondla onun formalaşması ilə məşğul olan işçilər; ikinci texnoloji iadrəetmə, yəni kitabxana fondunun formalaşması və idarə olunması nəzərdə tutulur. Kitabxana fondunun obyektinin idarə olunması ilk növbədə sənəd axınında onun hərəkətini qəbulu, yerləşdirilməsi və verilişi nəzərdə tutur, bir sözlə fondun yaranmasını, inkişafını və formalaşmasını özündə əks etdirir, idarəetmənin subyekti isə fondla məşğul olan işçilərdir hansı ki, bu proseslər onlara həvalə edilmişdir.

Fondun idarə olunması onların nəzəri, təcrübi əsasları rus alimləri tərəfindən olduqca dolğun şəkildə təhlil edilmiş, nəzəri və təcrübi cəhətdən qiymətləndirilmişdir.

Bu məsələ ilə bağlı V.İ.Teryoşin Y.M.Stolyarovdan fəqli olaraq fondun idarə olunmasına "Sənəd fondunun idarə olunması kimi baxır və qiymətləndirir". Eyni zamanda fondun idarə edilməsi və proseslərin idarə olunmasını bir-birindən ayırır. Fondun,yəni istehsal prosesini və istifadəsini ayırır və belə izah edir ki, əslində sənəd fondunun idarə olunması informasiya xidmətinə rəhbərlik edən işçilərin hamısına aiddir və onun formalaşması istifadə edilməsini əhatə edir.

Həmçinin kitabxana standartlarına müraciət etsək görərik ki, "fondun idarə edilməsi termini bölməsində də bu problemin texnoloji proses kimi fondun formalaşması, fondun təşkili, fondun komplektləşdirilməsi və tamlığının təmin edilməsi kimi əks olunur.

Fondun idarə edilməsi konsepsiyasını müxtəlif mütəxəssislərin fikirləri əsasında davam etdirmək olar. Lakin belə bir qənaətə gəlmək olar ki,



bütün bu fikir və ayrı-ayrı konsepsiyaların hər biri fondun idarə edilməsini müəyyənləşdirir onun ayrı-ayrı parametrlərini özündə əks etdirir, kitabxanaların vəzifəsinə uyğundur oxucu sorğularının ödənilməsinə xidmət edir. Hətta bir sıra dünya alimlərinin də kitabxana fondunun idarə olunması haqqında fikir və konsepsiyalarını bura əlavə etsək məsələnin mahiyyəti tam açıqlanmır ki, hər halda fondun tərkibi, mahiyyəti, fondun struktur quruluşu, kitabxanadaxili sənəd axını fondun formalaşması texnologiyası və kitabxana kadrlarının idarəetmə strategiyası hansı funksiyaları təmin edir.

Bütün bu məsələlərin elmi əsaslarla araşdırılması, təhlil edilməsi, fondun idarə edilməsi haqqında müəyyən konsepsiyaların işlənilməsi konkret elmi fakir və düşüncələrin ortaya qoyulması kitabxana resursları fənninin yeni aspektdə tədris olunmasına şərait yaradardı.

Kitabxana sistemi olduqca mürəkkəb proses və sistemləri özündə birləşdirir. Kitabxana fondlarının tərkibi ilə yanaşı, onun strukturu elmi və dil üzrə quruluşu bütün cəhətləri xırdalığına qədər açıqlanmalı və tədris prosesində izah olunmalıdır. Xüsusilə, fondun kitabxana sistemindəki yeri əhatə olunmalıdır.

Kitabxana informasiya resursları fənninin tədrisi zamanı kitabxana fondunun bütün mahiyyəti geniş şəkildə açıqlanmalı, kitabxana sistemində göstərilməlidir. İlk növbədə göstərmək lazımdır ki, fond mövcud olmadan heç bir kitabxana, stosianar bir müəssisə kimi fəaliyyət göstərə bilməz, fondun mövcudluğuna görə kitabxanalar özlərinin sosial vəzifələrini yerinə yetirmək imkanı əldə edirlər. Nəhayyət kitabxana fondunun mövcudluğu imkan yaradır ki, onlar öz ictimai funksiyalarını yerinə yetirsinlər. Baxmayaraq ki, son illərdə istər fondun komplektləşdirilməsi, istərsədə oxucu sorğularının ödənilməsində bir sıra spesifik dəyişikliklər baş vermiş, yeni elektron sənəd növləri meydana gəlmiş və onların məzmununda, komplektləşdirilməsində, istifadə olunmasında çox yeniliklər olması tədris prosesində izah olunmalıdır.Həmçinin bu məsələlər audiotoriyada geniş təhlil olunmaqla istər seminar, istərsədə məşğələ və laboratoriya dərslərində, xüsusilə fərdi tədris prosesində, frontal suallar əsasında öyrədilməlidir.

Kitabxana fondlarının yaradılması olduqca vacib məsələlərdən biridir. Lakin onun struktur quruluşunun formalaşması, xüsusilə idarə olunması çox vacib məsələlərdən biridir. Fondun idarə olunması ilə bağlı bir çox kitabxanaşünas alimlərin fərqli fikirləri mövcuddur. Belə olan halda ortaya sual çıxır ki, "kitabxana fondunun idarə olunması nədən ibarətdir"?

Bu suala bir sıra alimlər müxtəlif aspektlərdə cavab vermişlər. Ümumi fikir ondan ibarət olmuşdur ki, fondun idarə olunması – məqsədyönlü fəaliyyət növü, zəruri və bitgin formalaşma, kitabxana fondunun qorunması və səmərəli istifadəsidir. Bu deyilən nəzəri, təcrübi və elmi fikirlər,onun mahiyyəti, elmi ədəbiyyatlarda göstərildiyi kimi, üç kompleks prosesdən ibarət olmaqla tələbələrlə diskusiya şəklində öyrənilməsi, hətta bəzən elmi-təcrübi fikirlərə söykənməklə tənqidi fikirlər səslənməlidir.

Bu məqalənin "Kitabxana informasiya resursları fənninin tədrisi yeni aspektdə" olduğuna görə fond haqqında çox cüzi fikir və materialllar oxucuların nəzərinə çatdırmaq məqsədi ilə qələmə alınmışdır. Odur ki, kitabxana fondlarının idarə edilməsində formalaşmış proseslər 1. Fondun idarə edilməsi; 2. Fondun qorunmasının idarə edilməsi; 3. Nəhayət, fonddan istifadənin idarə edilməsi hər biri əsas mövzulardan biri kimi geniş öyrənilməli, idarəetmə prosesində, modelləşmə, komplektləşmə, fondun uçotu, kitabişləmə və fonddan çıxarılma prosesləri əhatəli olaraq təhlil edilməli və öyrədilməlidir.

Əlbəttə, kitabxana fondu yeni aspektdə, yeni strukturda müasir tələblərə uyğun, kitabxana informasiya resursları fənninin proqramından irəli gələn tələblər səviyyəsində tədris olunmalıdır.

Kursun yenidən formalaşması, yeni mövzu və bölmələrin daxil edilməsi, xüsusilə kitabxana informasiya resurslarının yeni kitabxana resursları və texnologiyaları ilə zənginləşməsi fənnin tədrisinin yeni aspektdə tədrisini zəruri edir. Odur ki, gələcək yazılarımızda tədris olunan fənnin digər aspektləri də qələmə alınacaq.

## ƏDƏBİYYAT:

1. Əliyev A.M., Həsənov M.M. Kitabxana fondu: proqram. - B.: BDU, 2001.- 25 s.
2. Həsənov M.M. Kitabxana fondunun öyrənilməsi sistemi// Kitabxanaşünaslıq və biblioqrafiya.-B.:BDU,2002.-№1.-s.31-37.
3. Васильченко Н.П.Методы управления библиотечным фондом /Н.П Васильченко//Научно-технические библиотеки.-1988.- №9.-с.17-19.
4. Григорьев Ю.В. Теоретические основы формирования библиотечных фондов: учеб.пособие/ Ю.В Григорьев.-М.,1973.-88 с.
5. Деева А.С. Хранение и исползование фондов ГПНТБ России / А.С. Деева.,И.А.Скорикова//Научно-технические библиотеки.-1995.- №12. - с.24-30
6. Коваленко Н.И.Обновление фонда. Методы оценки и расчета /Н.И Коваленко //Научно-технические библиотеки.-2002.- №5.-с.17-25
7. Павлова Л.П.Библиотека и новые информационные технологии /Л.П Павлова, //Научно-технические библиотеки.-1999.- №6.-с.15-21.
8. Терешин В.И. Библиотечный фонд: учеб.пособие /В.И.Терешин.- М.,1994. -174 с.
9. Шилов В.В.Методологический и математический аспекты в измерений полноты библиотечного фонда //В.В Шилов // Научно-технические библиотеки.-2001. -№8. -с.17-27.



**Х.Исмаилов**

## ПРЕПОДАВАНИЕ ПРЕДМЕТА ИНФОРМАЦИОННЫЕ РЕСУРСЫ БИБЛИОТЕК В НОВОМ АСПЕКТЕ

### Р Е З Ю М Е

В статье фонд библиотеки в современном обществе является частью информационных ресурсов. В отличие от других информационных ресурсов различными аспектами библиотечных фондов является то, что во время комплектации состав фонда целенаправленно предоставляет вид издания и дает информацию в соответствии с типом профиля комплектации. Так же в статье, чтобы создать единую модель библиотечных фондов в действующих фондах применение и иследование всех полусистем, его соответствие вмем параметрам и нормам, а так же интересам читателя тоже отмечается очень серьезно важным. После определения всего сказанного можно применять оптимальные решения о составе фонда и оптимальные ведущие решения, за счет формирования фонда новой комплектации может высказаться правильное мнение о размещении и защите фонда.

**Kh. Ismayilov**

## TEACHING OF LIBRARY INFORMATION RESOURCES SUBJECT IN A NEW ASPECT

### SUMMARY

The library fund in the article is part of the contemporary information resources. Unlike the other types of information resources the specific features of library funds present information about the compliance of the fund's content with the type of publication and the profile of staffing.

The importance of its study on compliance with all the parameters, norms and readers' interests by studying all the acting subsystems in order to establish a general model of single library funds is particularly mentioned in the article. An accurate opinion can be made about optimal administrative decisions, staffing of the fund, its placement and protection and an optimal decision can be taken on the content of the fund after identification of the above-mentioned issues